# ŞAİR-QƏZƏLXAN ƏLİAĞA VAHİDİN 130 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLDİ

**«Vahid böyük bir xəzinədir. Xalqımız Vahidi həmişə sevibdir. Xalqımız Vahidi heç vaxt unutmayıbdır. Vahidin nə qədər gözəl qəzəlləri, şeirləri, sözləri varmış. Vahid xalqımızın, respublikamızın xoşbəxt gələcəyini nə qədər gözəl tərənnüm edib, bunları açıqca deyib. Vahidin əsərləri başdan-başa fəlsəfədir. Meyxana xalqımızın, millətimizin folklorunun çox gözəl janrlarından biridir. Meyxana xalqın özünəməxsus bir folklorudur».**

**Heydər Əliyev,**
**Azərbaycan xalqının Ümummilli Lideri.**

**«Vahid milli poeziyanın qədim ənənələrini yeni dövrdə yüksək sənətkarlıqla davam etdirmiş və qəzəl janrının son dərəcə mükəmməl nümunələrini yaratmıdır. Şairin zəngin bədii irsi çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus bənzərsiz hadisədir».**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**



***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının və Ə.Vahid adına kitabxana filialının birgə təşkilatçılığı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzində şair-qəzəlxan Əliağa Vahidin 130 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirildi.***

Tədbiri giriş sözü ilə tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi, Yasamal rayon MKS-nin direktoru Lətifə Məmmədova açaraq tədbir iştirakçılarını və qonaqları salamladı. O, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əliağa Vahid haqqında söylədiyi fikirləri səsləndirdi.

Tədbirin aparıcısı 4 №-li kitabxana filialının müdiri Kamilə Novruzova tədbir boyu Əliağa Vahidin həyat və yaradıcılığı haqqında maraqlı məlumatlar verdi. Şair, yazıçı, jurnalist Əvəz Qurbanlı bildirdi ki, M.Füzuli, S.Ə.Şirvani və Əliağa Vahid Azərbaycanın ədəbiyyat tarixinə düşən şairlərdir. Ə.Vahidin qəzəlləri xanəndələr vasitəsilə xalqa ötürülmüş və sevilmişdir. O qeyd etdi ki, Ə.Vahid hər zaman məşhur olan meyxana sənəti ilə də məşğul olmuşdur.

Qəzəlxan Xəqani Əmini qeyd etdi ki, Ə.Vahidin sadə dildə yazdığı qəzəllərdə dərin fəlsəfi mənalar var. Vahid hər bir ifadəni yerində işlətmişdir. Xəqani Əmini Vahidin qəzəlini səsləndirdi.

Meyxanaçı Mehman Əhmədli çıxışında bildirdi ki, Ə.Vahid sənətkarlığında həm şeir, qəzəl, həm də meyxana vəhdət təşkil etdiyi üçün o, tarixə də böyük sənətkar kimi düşüb. Bütün meyxana deyənlər onu ustad, müəllim kimi qəbul edir. Əliağa Vahid Ağasəlim Çildağ kimi də böyük bir tələbə yetişdirib. O, Ə.Vahidin ölməz sənətkar olduğunu vurğuladı.

Aktyor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının əməkdar artisti Qorxmaz Əlili (Canzadə) bildirdi ki, «Əliağa Vahidin meyxanaları» adlı kitab 1925-ci ildə nəşr olunub. O, Ə.Vahidin həyatı haqqında araşdırmalar apardığını dedi və onun anadan olmasının tarixi haqqında da maraqlı məlumat verdi.

Uşaq yazıçısı, şair, Prezident təqaüdçüsü, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Gülzar İbrahimova «Vahid Ədəbi Məclisi»nin ənənələri haqqında danışdı, bu məclislərin davamlı olacağını bildirdi.

AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, tənqidçi-esseist Əsəd Cahangir dəvət üçün təşəkkürünü bildirdi və qeyd etdi ki, Ə.Vahid bizim müasirimizdir. Onun sadə dildə yazdığı qəzəlləri söyləyənlər əziyyət çəkmirlər. Ə.Cahangir Vahidin yazdığı qəzəlin Qarabağ müharibəsinin simvoluna çevrildiyini vurğuladı.

Şair, qəzəlxan, əməkdar mühəndis, texnika üzrə fəlsəfə doktoru, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Əli Ələmi bildirdi ki, Ə.Vahid xalqın şairidir. O, dünyasını dəyişəndə bütün şəhər onun dəfninə yığışmış və onun Fəxri Xiyabanda dəfn olunmasını istəyirdilər. Bütün bunların xalqın ona böyük sevgisindən irəli gəldiyini dedi.

Şair, yazıçı-publisist, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Gülarə Munis Ə.Vahid haqqında qısa məlumat verdikdən sonra ona həsr etdiyi qəzəlini səsləndirdi.

Şair, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Qadir Hüseynov çıxışında qeyd etdi ki, bütün şairlər Vətəni, xalqı tərənnüm etməyə çalışır, amma Ə.Vahid tamam başqadır. O, bildirdi ki, Ə.Vahidə hər zaman yaşayır. Qadir Hüseynov Ə.Vahidə həsr etdiyi şeirini səsləndirdi.

Şair, qəzəlxan Mahcamal Babayeva Ə.Vahid haqqında qısa məlumat verdi. Ə.Vahidi canlı görənlərdən biri olduğunu və onun qəzəllərinə təxmis yazdığını vurğuladı.

Yazıçı, ssenarist, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Firudin Qurbansoy Ə.Vahidin həyat və yaradıcılığı haqqında məlumat verdi. Qeyd etdi ki, Vahidin böyüklüyü qəzəli, əruz vəznini qoruyub saxlamasındadır.

M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasıvə Ə.Vahid adına 1№-li kitabxana filialı məktəblilər arasında Ə.Vahidin 130 illik yubileyi ilə əlaqədar şeir və inşa müsabiqəsi keçirmişdilər. Tədbirdə müsabiqənin qalibləri Təşəkkürnaməvə Diplomla təltif olundular.

Tədbirin bədii hissəsində xanəndə, Beynəlxalq və Respublika müsabiqələri laureatı, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Maya Cəbrayılova, 22 №-li Uşaq Musiqi Məktəbinin müəllim və şagirdi çıxış etdilər. Müsabiqənin qalibləri AMK nəzdində İncəsənət Gimnaziyasının, 225, 158, 38, 150 №-li məktəblərin şagirdləri Ə.Vahidin şeir və qəzəllərini söylədilər.

Tədbirdə mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, ziyalılar, «Üçüncü Bahar» İctimai Birliyinin üzvləri, geniş ictimaiyyətin nümayəndələri, kitabxananın oxucuları, kitabxanaçılar iştirak etdilər.

Tədbirdə Əliağa Vahidin 130 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş olundu: https://www.youtube.com/watch?v=kmG9DGi2rDM&t=73s

Tədbirin bədii hissəsində Niyazı adına 22 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri aşağıdakı musiqi nömrələrini ifa etdilər: «Xudayar təsnifi». Musiqisi Əlibaba Məmmədovun, sözləri Əliağa Vahidin. İfa etdi 2-ci sinif şagirdi İmaməddin Məmmədli, müşayət etdilər tarda Famil Vəliyev, kamançada Kamal Abdullayev (müəllim Kəvakib Şirinov). «Təsnif Qəzəl»i musiqisi Əlibaba Məmmədovun, sözləri Əliağa Vahidin. İfa etdi Kəvakib Şirinov, müşayət etdilər tarda Famil Vəliyev, kamançada Kamal Abdullayev. Beynəlxalq və respublika müsabiqələri laureatı, xanəndə Maya Cəbrayılova Ə.Vahidin sözlərinə yazılmış «Mahur» təsnifini, «Gözəllər» mahnısını və digər muğamları ifa etdi.

Qeyd olunduğu kimi, şair-qəzəlxan Əliağa Vahidin 130 illik yubileyi ilə əlaqədar M.Ş.Vazeh adına Yasamal rayon Mərkəzi Kitabxanası, Ə.Vahid adına 1 №-li kitabxana filialı və A.Şaiq adına 2 №-li kitabxana filialı Yasamal rayonunda yerləşən məktəblərdə inşa və şeir müsabiqəsi keçirdilər. İnşa və esse yazan şagirdlər Diplom və Təşəkkürnamə ilə təltif olundular. Qaliblər arasında A.İ.Məmmədov adına 38 №-li məktəbin 6b sinif şagirdi İlknur Xasiyeva «Əli Ağa Vahid — qəzəlin sonuncu səsi» mövzusunda yazdığı esse üçün Diplomla, 225 №-li tam orta məktəbin Kiçik Akademiyasının üzvü Böyükağa Kazımlı «Əliağa Vahidin 130 illik yubileyi», F.Rzayev adına 150 №-li tam orta məktəbin şagirdi Fatimə Kazımlı «Vahid dünyası», 158 №-li tam orta məktəbin 9b sinif şagirdi Rumil Quliyev «Əliağa Vahidin qəzəlləri və Vahid yaradıcılığı», T.Abbasov adına 225 №-li tam orta məktəbin Kiçik Akademiyasının prezidenti Əhəd Kərimli «Əbədiyaşar şair», T.Abbasov adına 225 №-li tam orta məktəbin Kiçik Akademiyasının üzvü Nurcan Muradlı «Sevimli Vahidimiz», T.Abbasov adına 225 №-li tam orta məktəbin Kiçik Akademiyasının vitse-prezidenti Vüsal Məmmədalıyev «Əliağa Vahidin 130 illik yubileyi» mövzularda yazdıqları inşa üçün Təşəkkürnamə ilə təltif olundular.

Şeir və qəzəl müsabiqəsinin qalibləri Davud Kərimov, Fatimə Əlizadə, Elnur Qasımlı, Fərrux Qurbanzadə, Fatimə Mənsimzadə, İbrahim Babayev, İmaməli Muradov, Xanım Məhərrəmzadə, Səkinə Mövsumova, Davud Oruclu, Gülay Qayıblı, Sabir Kərimov, Səlma Cəfərova, Yusif Babayev, Zəhra Səyadzadə, Zəhra Fərəcova, Aylin Rüstəmli Diplomla təltif olundular.

Diplom və Təşəkkürnamələri məktəblilərə 4 №-li kitabxana filialının müdiri Kamilə Novruzova, şair, yazıçı Əvəz Qurbanlı, qəzəlxan Xəqani Əmini, meyxanaçı Mehman Əhmədli, Azərbaycan Respublikasının əməkdar artisti Qorxmaz Əlili, uşaq yazıçısı, şair Gülzar İbrahimova, tənqidçi-esseist Əsəd Cahangir, şair, qəzəlxan Əli Ələmi, şair Qadir Hüseynov təqdim etdilər.



*Gunay QULULU,*
**Yasamal rayon MKS-nin operatoru.**